düşülməsi, məhdudiyyətlərin aradan qaldırılması və ölkədə qadın biznesinin inkişafı üçün effektiv siyasətin və dəstək tədbirlərinin hazırlanmasına kömək edər.

Sahibkar yenilik və yaradıcılıq anlayışlarını özündə birləşdirən şəxsdir. Sahibkarlıq maliyyə, fiziki və sosial riskləri olan kifayət qədər səy və vaxt sərf edərək yeni dəyər yaratmaqdır. Bu fəaliyyət növündə qadınların aktivliyi artan dinamika ilə inkişaf edir. Qadınların iqtisadiyyatda rolunun artırılması həm də BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 17 hədəfindən biridir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında. URL: https://e-qanun.az/framework/50013

## KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN İNKİŞAFINDA TURİZM SEKTORUNUN ROLU

*Tağıyev Arif Məmmədhəsən oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Dünya iqtisadiyyatında son illərdə baş verən qloballaşma və ölkələrarası beynəlxalq iqtisadi inteqrasiyanın güclənməsi şəraitində sürətlə inkişaf edən iqtisadi sahələrdən biri də daha çox kiçik və orta sahibkarlıq subyektləri formasında inkişaf edən turizm sektorudur. Hazırda turizm və əyləncə biznesi bir çox dünya ölkələrinin əsas gəlir mənbəyindən birinə çevrilməklə ölkə iqtisadiyyatında, Ümumi Daxili Məhsulun və Milli Gəlirin yaradılmasında xüsusi çəkisi yüksək dinamika ilə artmaqdadır.

Turizm sektoru, daha çox kiçik və orta sahibkarlıq subyektləri olmaqla qeyri-neft sektorunun əsas seqmentlərindən biri kimi Azərbaycan iqtisadiyyatında xüsusi əhəmiyyət kəsb edir. Çünki Azərbaycan turizm sektorunun inkişafı üçün potensial imkanları yüksək olan dünya ölkələrindən biridir. Dünyada mövcud olan 30-a qədər turizm növündən demək olar ki, əksəriyyətinin ölkəmizdə inkişaf etdirilməsi üçün potensial imkanlar mövcuddur.

Hələ Sovetlər İttifaqı dövründən Azərbaycanda bir çox turizm sahələri, xüsusilə istirahət turizmi, səyahət turizmi, su turizmi, idman turizmi, sağlamlıq turizmi və digər növləri kifayət qədər inkişaf etmişdir. Lakin turizmin bu növləri daha çox daxili turizm üçün, yəni SSRİ vətandaşları üçün açıq idı. Digər tərəfdən həmin dövrlərdə turizmə gəlirli bir biznes sahəsi kimi deyil, daha çox istirahət vasitəsi kimi baxıldığından buraya investisiya qoyuluşları o qədər də yüksək deyildi. Eyni zamanda Azərbaycanın İranla sərhəd zonaları, xüsusilə Masallı, Lənkəran, Astara, lerik, Biləsuvar və digər turizm porensialı yüksək ərazilərimizın vətəndaşların sərbəst hərəkəti üçün qapalı ərazilər olduğundan, o cümlədən əcnəbi turistlərin Azərbaycana səfərləri ciddi tənzimləndiyindən ölkəmizdə turizmin inkişafı və turizm potensialından tam istifadə edilməsi imkanları olduqca məhtud idi. Bununla belə sovetlər dövründən İttifaqda kifayət qədər tanınmış Naftalan, İsti-su, Günəşli, Abşeron, Qala-altı və digər bu kimi sanatoriyalar, Xəzər dənizı ətrafında, Şuşa, Zaqatala, Gəncə, Mingəçevir və digər

bölgələrimizdə mövcud olan kurort və istirahət evləri, məhşur tarixi abidələrimiz, muzeylərimiz ölkəmizdə turizmin inkişafına əsaslı təsir göstərmişdir. Hələ o dövrlərdən Mingəçevirdə yerləşən "Kür" Olimpiya avarçəkmə bazası bütün fəsillər ərzində İttifaqın və ayrı-ayrı respublikaların, o cümlədən Ukrayna və Pribaltika respublikalarının su idman növləri üzrə yığma komandalarını qəbul edir, beynəlxalq səviyyəli yarışlar keçirirdi. Özünün orjinal təbiəti, flora və faunası, iqlimi, coğrafi relyefi, qədim unikal tarixi abidələri ilə məhşur olan Azərbaycanın Quba-Xaçmaz, Lənkəran-Masallı, Şəki-Zaqatala, Gəncə-Qazax, o cümlədən uzun müddət işğal altında olmuş və hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgəsinin türizm potensialı həm keçmiş dövrlərdə, həm də indiki dövrümüzdə özünün xüsusi yeri ilə seçilir.

Çox təəssüf ki, 30 ilə qədər işğal altında olan ərazilərimizin sosial-iqtisadi və ekoloji potensialı erməni işğalçılarının terroruna məruz qalmış, dünyada anoloqu olmayan dağıntılara və sözün həqiqi mənasında talançılığa məruz qalmışdır. Demək olar ki müasir turizmin bütün növləri üçün unikal imkanları olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkə iqtisadiyyatına reinteqrasiyasında turizm sektorunun rolu dövlətimiz tərəfindən olduqca yüksək qiymətləndirilir. Hazırda "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Nilli Prioritetlər" çərçivəsində Azərbaycan dövləti tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi payonlarının sosial-iqtisadi potensialının bərpası və əhalinin bu ərazilərdə məskunlaşması ilə bərabər burada "yaşıl iqtisadiyyat" kontekstində sənaye, kənd təsərrüfatı və infrastruktur-xidmət kompleksinin inkişafı daxilində eyni zamanda kiçik və orta sahibkarlıq, kiçik biznes subyektləri kimi turizm sektorunun inkişafı istiqamətində məqsədli proqramlar həyata keçirilməkdədir [1].

Azərbaycan dövləti tərəfindən son illərdə qəbul edilmiş iqtisadiyyatın diversifikasiyası və şaxələndirilməsi konsepsiyasının reallaşdırılması istiqamətində qəbul edilən prioritetlərdən biri də təbii ki, turizm sektorunun inkişaf etdirilməsi olmuşdur. Ölkəmizdə turizmin inkişafı ilə bağlı bir sıra Dövlət Proqramları qəbul edilmiş və onların icası nəticədə son illərdə ölkədə yaradılan ümumi dəyərdə (ÜDM) turizmin xüsusi çəkisi 2-2,4 faizə qədər artmışdır. Lakin ölkəmizin turizm potensialı nəzərə alınmaqla bu hələ son hədd deyil və qarşıdakı hədəflərimiz daha böyükdür [5]. Təsadüfi deyildir ki, turizm sektorunun inkişafı ilə bağlı 2016-cı ildə ğəbul edilmiş Strateji Yol Xəritəsində qeyd edildiyi kimi "Mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcəkdir. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirməkdir". Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev "Azərbaycan Turizm Sammiti 2022"də çıxışı zamanı qeyd etdiyi kimi hədəfimiz 2026-cı ilə qədər xaricdən turist axınını 4 milyon nəfərə, daxili turizmi isə 6 milyon nəfərə, turizm gəlirlərini isə 4 dəfə artaraq 11,2 milyard manata çatdırmaq və bunun da yarısını xarici turistlərin hesabına əldə etmək nəzərdə tutulmuşdur [3] .

Çox ambisialı belə bir hədəfin həyata keçirilməsini reallaşdırmaq üşün ən uğurlu imkanlardan biri işğaldan azad olunmuş ərazilərimizin turizm potensialını yaxın illərdə tam həcmdə dövriyyəyə cəlb etməkdir. Hətta bu günümüzdə də bölgəyə olan turizm

marağının nə qədər yüsək olduğunun canlı şahidiyik. Bütövlükdə Qarabağ və Şərqi Zəngəzur bölgəsi özünün unikal təbiəti, iqlimi, flora və faunası, qədim tarixi abidələri, müalicəvi suları ilə dünyanın ən çox tanınan turizm bölgələri ilə müqayisə və rəqabət apara bilən bir potensiala malikdir. Burada əhalinin məşqulluğunun təmin olunması üçün həm iri, həm də kiçik turizm subyektlərinin yaradılması və inkişafı ilə bağlı hər bir şərait vardır. Yəni iri otellər, ixtisaslaşmış sanatoriya-kurort obyektləri ilə bərabər, kiçik biznes üçün xüsusilə yararlı olan kənd turizminin, istirahət turizminin, gəzinti turizminin inkişafı üçün potensial imkanlar yaranacaqdır. Bu yerli əhali üçün əlavə gəlir mənbəyi, məşğulluq məsələsi olduğu kimi, turistlər üçün də daha az məsrəflərlə sağlam və ekzotik bir istirahaət vasitəsi olacaqdır.

Burada bir məsələyə də mən xüsusi olaraq toxunmaq istəyirəm. Təbii ki, ölkənin turizm sahibkarlığının inkişafının vacib kompanentlərindən biri bu sahə üçün müxtəlif istiqamətli ixtisaslı kadrların hazırlanmasıdır. Kifayət qədər gənc bir sahə olduğundan bu sahədə kadr hazırlığı aparan universitetlərin sayı da o qədər çox deyil və bunlardan biri də Mingəçevir Dövlət Universitetidir. Artıq 200-dən çox məzunumuz universiteti bitirərək müxtəlif sahələrdə çalışırlar. Hazırda bu sahədə 2 ixtisas üzrə-“Turizm işinin təşkili” və “Turizm bələdçiliyi” ixtisasları üzrə kadr hazırlığı ilə məşğuluq. Son illərdə qəbulda ən populyar ixtisaslardan biri kimi bura axın daha çoxdur. Belə ki əşər bu ixtisaslar üzrə tələbə qəbulu 2020-2021 ci ildə cəmi 37 nəfər idisə, artıq 2021-2022ci tədris ilində 75 nəfər, 2022-2023 cü ildə 116 nəfər, 2023-2024 və 2024-2025-ci tədris illərində isə hər ildə 210 olmuş, növbəti ilə qəbul planımız isə 230 nəfər üçün nəzərdə tutulmuşdur. Gələçək üçün hədəflərimiz daha böyükdür [4].

Ədəbiyyat:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Nilli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin fevral 2021-ci il tarixli Sərəncamı.

2.Musayeva C.Q., Tağıyev A.M. Azərbaycan iqtisadiyyatı. Ali məktəblər ücün dərs vəsaiti. Bakı: Avropa nəşriyyatı, 2018. 420 s.

3. Azərbaycan Turizm Sammiti 2022: materialları.

4. MDU “İqtisadiyyat” kafedrasının illik hesabatları.

5. Azərbaycanın statistik göstəriciləri. AR DSK. Bakı, 2023.